# SABİR TƏSVİRİ SƏNƏTDƏ



Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

ZİYADXAN
ƏLİYEV

# SABİR TƏSVİRİ SƏNƏTDƏ

Təhsil NƏŞRİYYAT POLİQRAFİYA MMC

BAKI–2012

## Mirzə Ələkbər Sabirin 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin

## SƏRƏNCAMI

2012-ci ilin may ayında böyük Azərbaycan şairi, bədii-ictimai fikir tariximizdə yeni ədəbi məktəbin banisi, görkəmli maarifpərvər Mirzə Ələkbər Sabirin (Məşədi Ələkbər Hacı Zeynalabdin oğlu Tahirzadənin) anadan olmasının 150 illiyi tamam olur.

Mirzə Ələkbər Sabir çoxəsrlik poeziyamızın parlaq ənənələrini layiqincə yaşatmaqla bərabər, ədəbiyyatımızı keyfiyyətcə yeni mərhələyə yüksəldərək onu ictimai məfkurə baxımından daha da zənginləşdirən söz ustası kimi geniş şöhrət tapmışdır. «Molla Nəsrəddin» jurnalı ətrafında formalaşmış ədəbi cərəyanın aparıcı simalarından olan mütəfəkkir şairin yüksək istedadla yaratdığı əsərlərin başlıca mövzusunu mənəvi saflığa, mədəni yüksəlişə və maariflənməyə çağırış təşkil etmişdir.

Milli mədəniyyətimizin inkişafına misilsiz töhfələr vermiş Mirzə Ələkbər Sabirin 150 illik yubileyinin təntənəli surətdə keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Mirzə Ələkbər Sabirin 150 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İLHAM ƏLİYEV,**

Azərbaycan Respublikasının Prezidenti

*Bakı şəhəri, 1 iyun 2010-cu il*



Rəssam: Nəcəfqulu İsmayılov. 1961

Əliyev Ziyadxan
Ə56 Sabir təsviri sənətdə.
Bakı, "Təhsil", 2012, 168 səh.

Əməkdar incəsənət xadimi Ziyadxan Əliyevin "Sabir təsviri sənətdə" kitabında öz bənzərsiz "Hophopnamə"si ilə Azərbaycan ədəbiyyatında dərin iz salmış dahi söz xiridarının həyat və yaradıcılığına həsr olunmuş təsviri və dekorativ-tətbiqi sənət əsərlərindən söz açılır. Sənət adamlarının M.Ə.Sabir yaradıcılığına olan bədii münasibəti şairin əsərlərinin onun vəfatından sonra kitab halında çap olunmasından (1914) başlanmaqla bu günə kimi də davam etməkdədir. Rəssam və heykəltəraşlarımız tərəfindən yaradılmış həmin rəngkarlıq, qrafika, heykəltəraşlıq və dekorativ-tətbiqi sənət əsərləri müxtəlif muzeyləri və kitab səhifələrini bəzəməklə sənətsevərlərə estetik zövq verməkdə, oxuculara Sabir poeziyasının çoxqatlı məna tutumunu duymaqda yardımçı olmaqdadır. Bütünlükdə həmin sənət əsərləri yüksək bədii-estetik dəyərinə görə milli incəsənətimizin çoxəsrlik tarixini zənginləşdirən nümunələr hesab olunurlar. Elə kitabda da onların daşıdıqları zəngin məna-məzmun tutumuna, sənətkarlıq xüsusiyyətlərinə aydınlıq gətirilir.

$Ə\frac{4903010000}{053}2012$

© "Təhsil", 2012

## ÖN SÖZ

Şamaxıda Zeynalabdin Tahirzadənin ailəsində dünyaya göz açan (30 may 1862-ci il) Ələkbəri milli poeziyamızın parlaq ulduzuna çevirəcək həyat yolu mollaxanadan başlamaqla o dövrdə Şirvanda mütərəqqi sayılan Seyid Əzim Şirvaninin üsuli-cədid məktəbindən keçmişdi. Çox kiçik yaşlarında özünün şairlik istedadını büruzə verən Ələkbər az sonra bu həvəsin təsadüfi olmadığını təsdiqləməklə Azərbaycan gerçəkliyində düzü-düz, əyrini-əyri deyə bilən bir fenomenə çevrildi, sonda da çoxəsrlik milli poeziyamızda bənzərsizliyi danılmaz olan "Mirzə Ələkbər Sabir izi" qoydu.



*M.Ə.Sabirin ev muzeyi. Şamaxı şəhəri*

Bütün əsl yaradıcı şəxsiyyətlər kimi gördüklərini mənalandırmaqda, onu düşüncə qaynağına çevirməkdə Sabirin əvəzi yoxdu. Şairin ölməz "Hophopnamə"si bunun təsdiqidir. Bu günün özündə belə kiçikdənböyüyə kimi hamımızın dilindən onun misralarının əskik olmaması da bunun göstəricisi, şeirlərinin ruhumuza hakim kəsilməsinin nəticəsidir. Bu həm də onu dərindən sevənlərin Sabirin çoxtutumlu yaradıcılığına və döyüşkən şəxsiyyətinə olan ehtiramının ifadəsidir. Ölməz şairə olan bu məhəbbət təkcə ürəklərdə yaşamır.

Qədirbilən xalqımız görkəmli söz xiridarının vəfatından sonra onun xatirəsini əziz tutmuş, zaman-zaman onu müxtəlif formalarda əbədiləşdirmişdir. Respublikamızda onun adını daşıyan rayon mərkəzi, kənd və qəsəbə, ev muzeyi, mədəniyyət sarayı və